

**ƏLİ ƏLİRZAYEV,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANIN İQTİSADİ-SOSİAL İNKİŞAFINDA ROLU

Azərbaycan iqtisadiyyatı və onun sosial inkişaf qanunauyğunluqları və meylləri XX əsrin 60-cı illərindən bu günə kimi özünəməxsus təşkilati-idarəetmə xüsusiyyətləri kəsb edib ki, onun da əsas dominantları Heydər Əliyevin apardığı ağıllı siyasət, şəxsi təşəbbüs və iqtisadi fikirlərlə bağlıdır.

İqtisadi və sosial inkişafın nəzəri və metodoloji aspektlərinin regional xüsusiyyətləri və prioritet istiqamətləri hər bir ölkənin ictimai-siyasi həyatında aparıcı həlqə olub, uyğun problemləri və konkret olaraq həlli yollarını formalaşdırır.

Azərbaycan iqtisadi və sosial həyatın iki əsas iqtisadi sisteminə uyğun transformasiya olunub. Birinci, planlı təsərrüfat sisteminə uyğun iqtisadi potensialın yaranması, onun ittifaq şəraitində əsas istiqamətlərinin seçilməsi və idarə olunması, respublika mənafeyi baxımından həll edilməsi məhz Heydər Əliyevin əsas ideoloji yanaşma metodologiyasıdır.

İkincisi, planlı təsərrüfat sistemində formalaşan iqtisadi və sosial potensialın bazar iqtisadiyyatı şəraitində iqtisadi cəhətdən ən səmərəli demokratik və sosial ədalət prinsipinə uyğun bazar tipli transformasiya modeli və onun reallaşma mexanizminin əsas istiqamətləri olmuşdur. İqtisadi fikir və konseptual inkişaf baxımından Azərbaycanın iqtisadi və sosial həyatının əsas istiqamətlərinin və prioritetlərinin əsas məqsədi iqtisadi artım, əhalinin rifahı, iqtisadi təhlükəsizlik və inteqrasiya problemləridir.

Bu problemlərin həlli tarixçilik, reallıq və proqramik olaraq Heydər Əliyevin özünəməxsus metodologiyası, meyarlar və göstəricilər ilə təhlil edib, onun reallaşma mexanizmlərinə başçılıq edib.

Planlı təsərrüfat sistemində vahid iqtisadi məkan kimi Azərbaycan Respublikasının iqtisadi inkişafını təmin edən milli gəlirin artımı, istehsal olunan və istehlak olunan milli gəlir arasında nisbətlərin tarazlaşması, adambaşına düşən istifadə olunan milli gəlirin ittifaq səviyyəsinə və fizioloji normalar səviyyəsinə yüksəldilməsinin həlli problemləri üçün dəfələrlə ittifaq səviyyəli elmi praktiki konfranslar, proqramlar təşkil etmiş, öz çıxışlarında və beşilliklərin əsas vəzifələrində qəbul etdirmişdir.

H.Əliyev Azərbaycan iqtisadi potensialının maddi əşya strukturunu, onun təkrar istehsal tərkibini, regional iqtisadi inkişaf problemlərini, təbii resursların ehtiyatları və onlardan istifadənin əsas istiqamətlərini və səmərəlilik səviyyəsini qiymətləndirərək həmişə iqtisadi artımı və onunla yanaşı əhali rifahının iqtisadi və sosial inkişafın aparıcı həlqəsi və əsas ürəkciyi kimi əsaslandırır.

1970-1980-cı illərdə Azərbaycan iqtisadiyyatının inkişafı üçün mərkəzləşdirilmiş büdcədən maliyyələşdirilən doqquz məqsədli proqramlar hazırlanmış və SSRİ-nin mərkəzi orqanları tərəfindən təsdiq olunmuşdur. Sosial ədalət prinsipləri Heydər Əliyevin iqtisadi siyasətinin bütün səviyyələrində tarazlı inkişaf və stimul yaratmaq alətinə çevrilmişdir. Azərbaycanın adambaşına düşən istehsal olunmuş milli gəlirin onun istehsal etdiyi milli gəlirdən az olması, iqtisadçı dövlət rəhbəri kimi onu həmişə düşündürmüş və bu nisbətlərin əsas səbəbi olan struktur siyasət, onun istehsal, bölgü və istehlak səviyyəsində təkmilləşdirilməsi yolu ilə Azərbaycanda sosial inkişafın yüksəldilməsi uzun müddətli konseptual inkişaf istiqamətlərdir.

Azərbaycanın iqtisadi potensialının səmərəli istifadə üçün məcmuu sərvətlərin kompleks emalı və son məhsulun ixracatı üçün struktur təkmilləşdirmə planlı təsərrüfat sistemində H.Əliyevin məhsuldar qüvvələrin ərazi və sahə quruluşunun təkmilləşdirilməsi üçün əsas aparıcı məqsədi idi.

Sənaye strukturunun təkmilləşdirilməsi hasiledici sənayeyə uyğun emaledici sənaye komplekslərinin və hazır məhsulun ixracatı üçün təşkilati-iqtisadi tədbirlər və konkret yollar 1970-1980-cı il siyasətin əsas nəzəri və məqsədli inkişaf dinamikası olub. Azərbaycan iqtisadiyyatının potensial səviyyəsi onun ölkə iqtisadiyyatının dinamik artımında rolu ilə müqayisədə əhalinin həyat səviyyəsi və bir sıra sosial sahələrin inkişafında adambaşına düşən göstəricilərin aşağı olması H. Əliyevi həmişə narahat etmişdir. Azərbaycan iqtisadiyyatında idxal və ixrac arasındakı müsbət saldo, artım tempində olan dinamiklik, ehtiyatların iqtisadiyyat dövriyyəsinə cəlb edilməsi imkanlarını nəzərə alaraq sosial inkişaf üçün mexanizmlərin hazırlanması və istifadəsi əsas aparıcı tədbirlərdəndir.

İqtisadi inkişafla sosial və həyat tərzinin dinamikası arasında tarazlığın təmin olunması, iqtisadi potensialın və intellektual mülkiyyətin əhalinin tələbatının ödənilməsi üçün makroiqtisadi tənzimlənmə sistemidir. Bu cəhətdən iqtisadi inkişafla yanaşı sosial müdafiə problemləri, əhalinin pensiya təminatı, təhsil, mədəniyyət, elm sahələrinin inkişafı, əmək haqqı sistemi, əmtəə və xidmət bazarının təşkili bu günkü Azərbaycan iqtisadiyyatının mühüm problemləridir. Sosial inkişafın iqtisadi əsasları respublikada olan təbii resursların ayrı-ayrı sahə resurslarının maksimal istifadəsi və əhalinin məşğulluğunun təmin olunması təşkil edir. Bu məqsədlə regionlarının resurslarının mərkəzləşdirilmiş büdcə vasitəsilə iqtisadi dövriyyə cəlb edilməsi uyğun olan sosial infrastrukturun formalaşması H.Əliyevin iqtisadi siyasətinin ana xətti kimi uyğun dövrlərdə öz xüsusiyyətlərini kəsb edir. 1986-1993-cü illərdə Azərbaycan iqtisadiyyatının inkişafında tənəzzül dövrüdür. 1986-cı ildən başlanan azalma tempi 1990-1993-cü illərdə ən böhran nöqtəsinə çatmışdır. 1990-1993-cü illərdə Azərbaycan Respublikasında

müəssisələrin böyük əksəriyyətində istehsal prosesi dayanmış və ya müəssisələr öz istehsal gücünün cəmi 15-20%-i səviyyəsində işləmişlər. Həmin illərdə sənayedə illik geriləmə 20-30%, kənd təsərrüfatında 16-24%-ə, kapital qoyuluşunda 40%-ə çatmışdır. İstehlak mallarının qiymətləri ilə 14-18 dəfə artaraq iqtisadi və sosial sahələrdə dağıdıcı rol oynamışdır. Ölkə iqtisadiyyatını bürüyən tənəzzül və inflyasiya əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsinə, onun sosial vəziyyətinin kəskin surətdə pisləşməsinə səbəb olmuşdur.[1]

1993-cü ilin iyun ayında hakimiyyətə xalqın tələbi ilə gələn Heydər Əliyev Azərbaycanın iqtisadi və sosial həyatında baş verən tənəzzülü dayandırmaq, onun iqtisadi potensialının iqtisadi dövriyyəyə cəlb edilməsini, bazar tipli strukturunu yaratmaq və dünya iqtisadi inteqrasiya sisteminə daxil olmaq strategiyasını hazırladı.

Strateci planlaşma cari planlaşmanı əvəz etdi. İnzibati idarəetmə metodu demokratik prinsiplərə əsaslanan liberal iqtisadiyyat, təşəbbüskarlıq və xüsusi maraqlarla əvəz olunub. Təbii ki, sahibkarlıq şəraiti yaratmaq, bazar iqtisadiyyatına keçidin müddətini qısa etmək, sosial gərginliyin azaldılması və əhalinin maddi rifahında baş verən deformasiyanı tezliklə və az itkilərlə bərpa etmək proqramatik və elmi əsaslarla təmin olunmuş radikal iqtisadi-təşkilati tədbirlərin düşünülmüş variantlardan asılı idi. Belə variant məhz biliyə sahib olan, onun iqtisadi idarəetmə təcrübəsində aprobasiyasını tapan və yeni bazar sisteminin tələblərini bilən, reallığı görən, zəngin idarəetmə təcrübəsinə və prinsipial dəyişmələrin zəruriliyini və onun nəticələrini görən Heydər Əliyevin iqtisadi bilikləri və rolu ilə baş vermişdir. Heydər Əliyevin 1993-1995-ci illərdə uzaqgörən iqtisadi siyasəti və Azərbaycan Respublikasının özünəməxsus islahatlar proqramlarının tərtibi və icrasına başçılığı nəticəsində mühüm iqtisadi-sosial problemlərin həlli üçün əlverişli şərait yarandı. Keçid dövrü iqtisadiyyatın bazar tipli modeli, onun əsas konturları, istiqamətləri və miqyası, mərhələ və ardıcıllıqları hər bir ölkədə özünəməxsus xüsusiyyətlər və prinsiplər kəsb edir. İlkin növbədə bazar iqtisadiyyatının əsası olan mülkiyyət münasibətlərinin təkmilləşdirilməsi, dövlətsizləşdirmə və özəlləşdirmənin əsas metodologiyası və konkret mexanizmləri işlənib, hazırlandı. Planlı təsərrüfat sistemində bazar tipli iqtisadi və sosial inkişaf strategiyasında mövcud potensialın sahibkarlıq və maddi stimullara əsaslanaraq transformasiyası yolu ilə əhalinin sosial gərginliyini azaltmaq və onların sonrakı problemlərini həll etməkdən ibarət olmuşdur. Bu keçid dövrünü, mənim fikrimcə, Heydər Əliyevin islahatlar prinsipləri adlandırmaq olar:

- müxtəlif mülkiyyət formalarına və münasibətlərinə əsaslanan iqtisadi və sosial müdafiə sisteminin yaradılması;
- azad sahibkarlığın inkişafına iqtisadi və hüquqi təminat verilməsi və onun inkişafı üçün şəraitin yaradılması;

1.Azərbaycan Respublikası 1981-2001-ci illər. Bakı, 2001.səh. 159



- iqtisadiyyatın sağlam rəqabət mühiti əsasında inkişaf etdirilməsi üçün transmilli kompaniyalar, inhisarların yaradılmasının demokratik prinsipləri və yerli maraqlar əsasında inkişaf etdirilməsi;
- əhalinin maddi rifahının yaxşılaşdırılması, sosial müdafiənin təşkili və yoxsulluğun ləğvi üçün lazım olan tədbirlərin əsaslandırılması.

Azərbaycanın iqtisadi və sosial inkişafının ilkin mərhələsi makroiqtisadi və sabitləşmə proqramı əsasında iqtisadi artıma nail olmaq, sosial tələbatı prioritet qəbul etmək və regional inkişaf problemlərini öncül istiqamət kimi reallaşdırmaqdan ibarətdir.

Makroiqtisadi tarazlıq və sabitləşmə Azərbaycanın dünya ölkələri inteqrasiyasına daxil olmağa və dünya iqtisadi qurumların Azərbaycanda islahatların nümunəvi olmasına və investisiya axını üçün hüquqi və təşkilati əsas verir. (Cədvəl 1)

**Azərbaycan Respublikası sosial-iqtisadi inkişaf göstəricilərinin dinamikası (əvvəlki ilə nisbətən, faizlə)**

| Göstəricilər | 1991 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 |
|---|---|---|---|---|---|---|---|---|
| Əhalinin sayı | 101,5 | 101,1 | 101,0 | 101,0 | 101,0 | 100,8 | 100,8 | 100,8 |
| Fəal əhalinin sayı | 100,9 | 99,6 | 102,1 | 100,4 | 100,3 | 100,1 | 100,0 | 100,4 |
| Ümumi daxili məhsul | 99,3 | 88,2 | 101,3 | 106,8 | 110,0 | 107,4 | 111,1 | 109,9 |
| Sənaye məhsulu | 91,1 | 78,6 | 93,3 | 100,3 | 102,2 | 103,6 | 106,9 | 109,9 |
| Kənd təsərrüfatı məhsulları | 100,3 | 93,0 | 103,0 | 93,9 | 106,2 | 107,1 | 112,1 | 101,1 |
| Kapital qoyuluşu | 79,2 | 82,0 | 2,11 | 39,2 | 123,0 | 98,0 | 103,0 | 121,0 |
| Nəqliyyat sektorunun yük daşınması (boru kəmərləri istisna olmaqla) | 89,9 | 91,1 | 100,7 | 116,6 | 120,0 | 132,5 | 121,2 | 116,9 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Əhalinin pul gəlirləri (dəfə) | 2,1 | 5,3 | 1,4 | 1,3 | 1,2 | 1,1 | 1,1 | 1,1 |
| Əhalinin pul xərcləri (dəfə) | 1,8 | 6,9 | 1,4 | 1,3 | 1,9 | 1,1 | 1,1 | 1,1 |
| Orta aylıq nominal əmək haqqı | 163,1 | 407,6 | 143,1 | 158,5 | 118,9 | 109,3 | 120,9 | 127,3 |
| İxrac (cari qiymətlərlə) | - | 97,8 | 99,1 | 123,8 | 77,6 | 153,4 | 187,7 | 122,1 |
| İdxal (cari qiymətlərlə) | - | 85,8 | 143,9 | 82,7 | 135,3 | 96,2 | 113,1 | 122,1 |
| Fəaliyyət göstərən kiçik müəssisələrin sayı, vahid | | 7226 | 13299 | 16027 | 16504 | 19003 | 24254 | 25121 |
| Kiçik müəssisələrdə işləyənlərin sayı (min nəfər) | | 59,4 | 36,7 | 94,9 | 114,9 | 83,7 | 99,8 | 118,2 |

Sosial-iqtisadi inkişaf göstəricilərinin dinamikası aparılan iqtisadi və sosial siyasətin ayrı-ayrı və kompleks nəticələrinin reallığını göstərir.

1996-cı ildən Azərbaycan iqtisadiyyatında artım tempi, sosial və rifah sahəsində dayanıqlı idarəetmə strukturunda bazar tələbinə uyğun dəyişmələr baş verib. Ümumi daxili məhsulun illik artım tempi sənaye məhsullarının istehsal həcmi və dinamikası, kənd təsərrüfatı məhsullarının yerli istehsal hesabına bazar tələbatında xüsusi çəkisinin artması əhali gəlirlərinin əmək haqqı və sosial müdafiə funksiyasının artımı üzrə Azərbaycan MDB məkanında və Şərqi Avropa respublikaları arasında ən aparıcı rol oynayır.



Azərbaycanın iqtisadi və sosial inkişafının sahə və ərazi problemləri, Heydər Əliyevin tarazlaşma və dinamik inkişaf baxışlarına uyğun həll olunur. Dövlət quruculuğu müstəqil Azərbaycanın iqtisadi əsaslarının hüquqi bazasının iqtisadi və sosial münasibətləri tənzimləyən qanunlar sistemi müəyyən edir. Müstəqillik dövründə prezident Heydər Əliyevin təşəbbüsü ilə 600-ə yaxın müxtəlif qanunlar Milli Məclisdə baxılıb və prezident tərəfindən təsdiq olunub.

İqtisadi və sosial inkişafı tənzimləyən qanunların əsas məqsədi dövlətin iqtisadi siyasəti, onun vəzifələri və mexanizmlərinin hüquqi bazasına və təşkilati-idarəetmə strukturunun əsas istiqamətlərini müəyyənləşdirməkdir.

Azərbaycan iqtisadiyyatının əsas aparıcı həlqəsi olan sənaye potensialı və onun əsas hissəsini təşkil edən neft sektorunun inkişafı, neftin hasilatı, bölgüsü və təkrar emalı sahəsində görülən təşkilati işlərdir. Neftin məhz indiki keçid dövründə Azərbaycan iqtisadiyyatının digər sahələrinin inkişafı və onun sosial problemlərinin həlli üçün əhəmiyyətini nəzərə alaraq Əsrin müqaviləsi XX və XXİ əsrin ən mühüm tarixi iqtisadi hadisəsidir.

Neft strategiyasının əsas məqsədi, reallaşması, Azərbaycan Respublikasının inteqrasiya sistemində rolunu, onun ixracatda xüsusi çəkisini və digər sahələrin inkişafını təmin edəcəkdir.

Neft müqavilələrinin həyata keçirilməsində 19 ölkənin 30 neft şirkəti iştirak edir.

Neftin hasilatı ilə yanaşı onun dünya bazarına çıxarılması üçün buraxılış imkanı ildə 50 min ton neft, uzunluğu 1730 kilometr olan yeni Bakı-Tiflis-Ceyhan əsas ixrac boru kəməri layihəsinin reallaşması Azərbaycanın iqtisadi və sosial həyatında, regionların xidmət sahəsində böyük rol oynayır.

Azərbaycanın iqtisadiyyatının bazar tipli transformasiyası, təşkilati-idarəetmə mexanizmlərinin yeniləşməsi və dünya iqtisadi sistemə inteqrasiyası üçün transformasiyası prosesinin səmərəliliyinin tənzimlənməsində prezident Heydər Əliyevin konseptual və konkret rolu mövcuddur. İlkin növbədə qanunvericilik bazasının təkmilləşdirilməsi və onların çevikliyində təşəbbüskarlığın elm tütümlu və praktiki əhəmiyyətliliyi, digər tərəfdən normativ hüquqi aktların və icra mexanizmlərinin əməliliyi və maraqlar prizmasında uzlaşmanın təmin olunması.

Azərbaycanda idarəçilik sisteminin təkmilləşdirilməsi və bazar iqtisadiyyatı qanunlarının daha geniş vüsət alması üçün sahibkarlıq fəaliyyətinin genişlənməsi sahəsində təşkilati məsələlər prezident Heydər Əliyevin apardığı siyasət və həyata keçirdiyi tədbirlər nəticəsində öz bəhrəsini verir. Artıq iqtisadi artım məhz sahibkarlığın artan rolu ilə səciyyələnir. ÜDM-un əmək 71%-ni, sənaye məhsulunun 50%-i, kənd təsərrüfatı məhsulunun 98%-ni, pərakəndə əmtəə dövriyyəsinin 99%-ni özəl sektor təşkil edir. Özəlləşdirmənin intensiv hə-

yata keçirilməsi, torpaq islahatı, sahibkarlığa hüquqi iqtisadi kömək və təşkilati yardımlar, özəl sektorun iqtisadi rolunu sosial inkişaf və əhali məşğulluğu, regional siyasətdə mühüm tədbirlərdir.

Maliyyə, vergi, kredit və regional siyasətin Azərbaycan iqtisadi və sosial inkişafında rolunun tənzimlənməsi üçün bu mexanizmlərin ali məqsədin konseptual inkişaf problemlərinin həllində fəal olmasını və düzgün əsaslandırılması ilə bağlıdır.

Büdcə-maliyyə sisteminin daimi artımı, onun strukturunun prioritet istiqamətlərə xərclənməsi, sosial yönlüyü, şəffaflığı, vahidliyi artıq təmin olunmuşdur. Azərbaycanın dövlət büdcəsinin tərtibi, təsdiqi və onun icrası qanunvericiliyə uyğun olaraq həyata keçirilir və maliyyə resursları üzərində nəzarəti keçirmək, demokratik aşkarlıq prinsipinə uyğun keçirilir.

Azərbaycan Respublikasında hesablama palatasının yaranması, audit xidməti, sosial müdafiə fondu, neft fondunun yaradılması və digər iqtisadi idarəetmə orqanlarının funksional idarəetmənin inzibati sahə idarəsindən fərqli olaraq ünvanlılığı və əməliliyi, səlahiyyət və məsuliyyət prinsiplərini daha da təkmilləşdirir. Vergi sistemini təkmilləşdirmək, sahibkarlığın inkişafı, maliyyə-büdcə tələbatının ödənilməsi və sosial müdafiə tədbirlərinin yaxşılaşdırılması prizmasından həll olunur.

Vergi siyasətində differensial yanaşma, vergi münasibətlərinin tətbiqi və kənd təsərrüfatının stimullaşdırılması üçün torpaq vergisindən başqa digər vergilərin ləğvi cənab Prezidentin məhz stimullaşdırma tədbirləridir.

Region inkişafı, kəndin sosial inkişaf problemləri Heydər Əliyevin iqtisadi idarəetmə təcrübəsində həmişə prioritet sahə kimi formalaşıb və praktiki həllini tapıb.

Kəndin sosial-iqtisadi inkişafı, kənddə əhalinin məşğulluğu, onların gəlirlərinin artımı və kənddə sosial obyektlərin və mədəni inkişafın bazar iqtisadiyyatı şəraitində saxlanılması və inkişafı sosialyönlü siyasət kimi aparılan dövlət siyasətinin tərkib hissəsidir.

Kəndin sosial-iqtisadi inkişafının əsasını təmin edən torpaq islahatı, güzəştli maliyyə-vergi siyasəti bir sıra sahələrin inkişafı üçün mərkəzləşdirilmiş məqsədli proqramlar və müavinətlər bazar iqtisadiyyatı şəraitində regionların məskunlaşması və kompleks inkişafına dövlətin himayəçilik siyasətidir.

Azərbaycan iqtisadi və sosial inkişafının əsas göstəricisi əhali rifahı, onun təhsil, səhiyyə, mədəni tələbatının ödənilməsi üçün atılan addımlardır. Əmək haqqının artırılması məhz sahibkarlığın artımını, onların xalis gəlirlərinin artması hesabına, digər tərəfdən dövlət büdcəsinin və büdcədən kənarda fondların ölkənin maliyyə imkanlarının artması mənbələri hesabına baş verir. Azərbaycanda artıq 1,4 mlrd. ABŞ dolları ehtiyat fondu, 700 mln. ABŞ dollarına qədər neft fondu və 1,2 mlrd. dollara qədər dövlət büdcəsinin gəlirləri formasında mövcuddur. Bu resursların prioritet sosial-iqtisadi istiqamətlər sahəsində istifadəsi Azərbaycanın həyatında əməli problemlərin həllinə şərait yaradır və təhlükəsizliyin qorunmasına maddi baza yaradır.



Sosial-iqtisadi inkişaf əhalinin gəlirləri və onların əmək haqqının artımı, istehlak xərcləri və xidmət istehlakının artımı ilə müəyyən olunur. (Cədvəl 2.)

**Əhalinin gəlirləri və xərclərinin dinamikası**

| Göstəricilər | 1991 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 |
|---|---|---|---|---|---|---|---|---|
| Əhalinin pul gəlirləri (mlrd. manat) | 1,06 | 712,7 | 9525,7 | 12367,1 | 14423,8 | 16134,4 | 17556,8 | 19381,8 |
| Adambaşına düşən pul gəlirləri (min manat) | 0,1 | 886,0 | 1246,3 | 1602,3 | 1850,9 | 2052,0 | 2214,4 | 2425,4 |
| Əhalinin pul xərcləri (mln. man) | 0,9 | 1378,9 | 9265,1 | 12056,6 | 14662,7 | 15922,6 | 17347,2 | 18800,6 |
| İqtisadiyyatda məşğul olanların orta aylıq əmək haqqı (manat) | 19,5 | 62467,4 | 89370,1 | 141643,4 | 168419,2 | 189467,5 | 21606,0 | 259953,0 |

Cədvəl 2-dən göründüyü kimi, aparılan sosial-iqtisadi inkişaf siyasəti nəticəsində əhalinin pul gəlirləri 2001-ci ildə 1995-ci ilə nisbətən 3 dəfəyə, iqtisadiyyatda məşğul olanların sayı isə 4 dəfəyə yaxın artmışdır.

Əhalinin pul gəlirləri onun xərclərinin artmasına və xərclərin strukturunda ərzaq tələbatının ödənilməsi ilə yanaşı qeyri-ərzaq istehlakının yaxşılaşması və xidmət istehlakının pullu xidmətin artmasına səbəb olmuşdur.

Əhalinin sosial müdafiə problemi, pensiya təminatı, sosial müdafiə fondları, müavinətlər və əhalinin ayrı-ayrı sosial qrupları üçün tətbiq olunan sosial müdafiə tədbirlərinin səmərəsindən asılıdır. Pensiyanın adambaşına səviyyəsinin artı-

mı, minimal pensiyanın artırılması, onun istehlak büdcəsinə yaxınlaşdırılması, orta aylıq pensiya ilə orta aylıq əmək haqqı arasında nisbətlərin tənzimlənməsi, sosial pensiya ilə əmək pensiyaları arasında fərqlərin elmi əsaslarla tənzimlənməsi Heydər Əliyevin sosial tənzimlənmə strategiyasıdır.

Azərbaycan Respublikasının demoqrafik tərkibi, onun təkrar istehsal strukturu, sosial müdafiə fondunun formalaşdırılmasında büdcə transfert gəlirlərinin normativ tələbatı, uyğun istifadəsi, məcburi sığorta yolu ilə pensiya təminatının formalaşması istiqamətində dünya ölkələrinin təcrübəsinə yaxınlaşma baş vermişdir. Pensiya islahatı pensiyanın baza və sığorta formasında perspektiv islahatlar konsepsiyası və proqram meylləri, əhalinin aztəminatlı pillələrinin maddi təminatı üçün təminat sistemidir.

Heydər Əliyevin yoxsulluq probleminin ləğvi üçün təşkilati-idarəetmə metodikası artıq real həyatda öz əksini tapır.